AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 24 (1424), 11 - 24 iyun 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.

## Minsk-2019-a yollanacaq idmançılar və nümayəndə heyəti ilə görüş keçirilib



İyunun 10-da Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Minsk-2019 ikinci Avropa Oyunlarında iştirak edəcək idmançılar və nümayəndə heyəti ilə görüş keçirilib.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin rəisi Fərid Mansurov, Minsk-2019 Avropa Oyunlarının Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar Bağırov, Minskə yollanacaq idmançılar, məşqçilər və federasiya rəsmiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, tədbirin təşkil olunmasında əsas məqsəd nümayəndə heyətini Avropa Oyunları ilə bağlı məlumatlandırmaqdır.

(ardı 3-cü səhifədə)

## III Avropa Oyunları Polşada keçiriləcək

EUROPEAN OLYMPIC COMMITTEES

Polşa 2023-cü ildə keçiriləcək Avropa Oyunlarını qəbul edəcək. Avropa Olimpiya Komitəsi təsdiq edib ki, Polşa bu oyunları keçirməyə namizəd göstərilən yeganə ölkə olub.

2023-cü ildəki yarışların keçirilməsi üçün Polşa Krakov və Malopolski regionlarını seçib. Ərizələrin təqdimatı üçün son tarix mayın 31-i idi. Polşanın oyunların keçiriləcəyi növbəti ölkə olması barədə rəsmi qərar iyunun 22-də Minskdə veriləcək.

## *Çingiz Hüseynzadə:*

## "II Avropa Oyunlarında atletlərimizin qazandığı medalların sayı çox olacaq"

Səh. 2

## *Anons*

*Şanxaydan iki medal* Səh. 3

Badminton yarışında təmsilçimizin rəqibləri müəyyənləşdi Səh. 3

Yığma komandamızın üzvləri Minsk sınağına hazırdır Səh. 4

*Azərbaycan "İdman - yüksək incəsənət" sərgisində təmsil olunur* Səh. 4

*II Avropa Oyunları Minskin 12 idman arenasında keçiriləcək* Səh. 5

*Bütün dünya Avropa Oyunlarının həyəcan və sevincini ilk dəfə Azərbaycanda hiss etdi*



Səh. 6

I Avropa Oyunları foto-obyektivin gözü ilə Səh. 7

## XV Avropa Gənclər Olimpiya Festivalına 40 gün qalır





## II Avropa Oyunlarına 10 gün qalır

## Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının biletləri satışa çıxarılıb

Baku 2019 EUROPEAN YOUTH OLYMPIC FESTIVAL

Bu il iyulun 21-27-də Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalının biletləri iyunun 10-da satışa çıxarılıb. Biletlərin satışı Festivalın Əməliyyat Komitəsi ilə "iTicket" şirkəti arasında imzalanan razılıq müqaviləsi çərçivəsində həyata keçirilir.

Satışa çıxarılan 146 min bilet Bakı-2019Avropa Gənclər Olimpiya Festivalının www.eyofbaku2019.com, eləcə də www.iticket.azsaytlarından əldə oluna bilər. Bundan əlavə, bütün idmansevərlər biletləri "Park Bulvar", "Gənclik", "28 May" ticarət mərkəzlərindən və paytaxtın müxtəlif ərazilərində fəaliyyət göstərən 12 bilet satışı məntəqəsindən də əldə edə bilərlər.

Festivalın açılış mərasiminə bir biletin qiyməti 10-15, bağlanış mərasiminə isə 5-10 manat təşkil edəcək. Hər iki mərasim "Baku Crystal Hall"da keçiriləcək. Bütün idman yarışlarına biletlərin ödənişsiz olmasına baxmayaraq, arenalara giriş yalnız əvvəlcədən əldə edilən biletlər vasitəsilə mümkün olacaq.

Gənclər və İdman naziri Azad Rəhimov bildirib ki, açılış və bağlanış mərasimlərinin biletləri üçün ən münasib qiymətlərin təyin edilməsi, habelə bütün idman yarışlarına biletlərin pulsuz olması yerli və xarici azarkeşlərdə festivala daha çox maraq oyatmaq və onların bu möhtəşəm oyunları şəxsən izləmələrinə imkan yaradacaq.

İyulun 21-27-də Bakıda keçiriləcək festivalla əlaqədar Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə gələcək. Atletlər idmanın 10 növü üzrə - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

## *Zəka sahiblərimiz Avropa çempionatında 4 medal qazanıblar*



Rumıniyanın Mamaya şəhərində keçirilən məktəblilər arasında şahmat üzrə Avropa çempionatı başa çatıb.

Qitə çempionatında 12 şahmatçı ilə təmsil olunan Azərbaycan komandası 1 qızıl və 3 bürünc medal qazanıb. Belə ki, Şəki şahmat məktəbinin 8 yaşlı yetirməsi Yusif Kərimli U-9 yaş kateqoriyasında Avropa çempionu olub. Eyni yaş qrupunda mübarizə aparan Rafael Bayramlı üçüncü yeri tutub. Qızların U-9 yaş qrupunda Xanım İsmayılova bürünc medala sahib çıxıb. Naxçıvan Şahmat Məktəbinin yetirməsi Sadqi Məmmədov isə U-17 (Open) yarışında üçüncü yerə layiq görülüb.

## Avropa kuboku yarışlarında gümüş medal



Azərbaycanın triatlon yığmasının üzvü Rostislav Pevtsov Dnepropetrovsk şəhərində təşkil olunan sprint üzrə Avropa kuboku yarışlarında gümüş medal qazanıb.

Təmsilçimiz 61 idmançının mübarizə apardığı yarışı 52 dəqiqə 17 saniyəlik nəticə ilə başa vurub. R.Pevtsov 750 metrlik su məsafəsini 9 dəqiqə 39 saniyəyə qət edib. Ardınca idmançımız 20 kilometrlik velodistansiyanı 26 dəqiqə 16 saniyəyə başa vurub. Nəhayət, yarışların sonuncu mərhələsi - 5 kilometrlik qaçış zolağını Rostislav 15 dəqiqə 12 saniyə nəticə ilə tamamlayıb.

Qadınların mübarizəsində isə komandamızın üzvü Kseniya Levkovskaya 58 dəqiqə 53 saniyəlik nəticə ilə beşinci olub.

Cari mövsümdə R.Pevtsov akvatlon üzrə dünya çempionatında qələbə qazanıb.

Qeyd edək ki, idmançılarımız Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq üçün təsnifat turnirlərində iştirak edəcəklər. Onlar dünya və Avropa çempionatları, dünya və Avropa kuboku yarışları da daxil olmaqla çıxış etdikləri bütün turnirlərdə Olimpiadaya lisenziya xalları toplayırlar.

Müsahibə

# Çingiz Hüseynzadə:
## "II Avropa Oyunlarında atletlərimizin qazandığı medalların sayı çox olacaq"

*Azərbaycanın tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına yüksək səviyyədə təşkilatçılığından sonra bu yarışları qəbul etmək bir qədər çətin və məsuliyyətli idi. Bu məsuliyyəti öz boynuna Bakıdan sonra Belarusun Minsk şəhəri götürdü. İyun ayında qədim slavyan torpağında təşkil edilən yarışlarda Avropanın 50 ölkəsindən 4 min idmançı medallar uğrunda mübarizə aparacaq. II Avropa Oyunlarında iştirak edəcək Azərbaycan komandasının heyəti artıq məlumdur. Maraqlıdır ki, bu yarışlar başa çatdıqdan dərhal sonra Avropa qitəsinin daha bir mötəbər yarışı- Avropa Gənclər Olimpiya Festivalına ölkəmiz ev sahibliyi edəcək.*

*Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə II Avropa Oyunları, komandamızın heyəti və digər maraqlı məsələlər barədə "Olimpiya dünyası" qəzetinə eksklüziv müsahibə verib. Həmin müsahibəni oxucularımıza təqdim edirik.*



***- Çingiz müəllim, Minsk-2019 Avropa Oyunlarına yollanacaq heyət artıq məlumdur. MOK-un vitse-prezidenti kimi komandanın heyəti Sizi qane edirmi?***

- Azərbayan komandası Avropa Oyunlarında böyük heyətlə iştirak edəcək. Heyət bizi tamamilə qane edir. Nümayəndə heyətinin tərkibində 82 nəfər idmançı yer alıb. Ümumilikdə, 11 idman növündə təmsil olunacağıq. Güləş, boks, cüdo, sambo, karate kimi idman növlərində əvvəlcədən də, lisenziyaların sayının çox olacağını bilirdik.

### "I Avropa Oyunları həm Avropa, həm də ölkə idmanı tarixinə qızıl hərflərlə yazıldı"

***- Necə düşünürsünüz, II Avropa Oyunları Bakıdakı kimi maraqlı olacaqmı və Minsk Bakıdan təşkilatçılıq estafetini lazımınca qəbul edə biləcəkmi?***

- 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları həm Avropa, həm də ölkə idmanı tarixinə qızıl hərflərlə yazıldı. Bu, bir salnamədir. Bu cür yüksək səviyyədə təşkilatçılıq və uğur çox güman ki, bir daha təkrarlanmayacaq. Amma düşünürəm ki, Minskdə keçiriləcək II Avropa Oyunları da maraqlı olacaq. Çünki əksər idman növlərində güclü idmançılar yarışacaqlar. Bu da təbii ki, yarışların gərgin və maraqlı olacağından xəbər verir.

Minsk-2019 Təşkilat Komitəsi artıq xeyli vaxtdır ki, hazırlıqlara başlayıb. Bir çox işlər görülüb və görülməkdədir. Amma bəzi problemlər hələ də qalır. Bu problemlər, əsasən, nəqliyyatla bağlıdır.

***- Kamandan oxatma, badminton, kanoe idman növlərində çox az sayda lisenziya qazanılıb. Bunun səbəbini nədə görürsünüz?***

- Adıçəkilən idman növləri Azərbaycanda o qədər də inkişaf etməyib və təbii olaraq, bu növlərdə Avropa səviyyəsində idmançılarımızın sayı da azdır. Bir faktı da qeyd edim ki, indiyədək kamandan oxatma, badminton, kanoedən avarçəkmə kimi idman növlərində Olimpiya Oyunlarında təmsil olunmamışıq. II Avropa Oyunlarına lisenziya əldə etməyimiz özü yaxşı nəticədir. Təcrübədən də göründüyü kimi, eyni ölkədə bütün idman növlərini yüksək səviyyədə inkişaf etdirmək mümkün deyil. Məsələn, bir ölkədə yaxşı inkişaf etmiş idman növü digər ölkədə populyar deyildir və ya əksinə. Bunun müəyyən obyektiv və subyektiv səbəbləri vardır.

***- Necə düşünürsünüz, növbəti Avropa Oyunlarında həmin idman növlərində lisenziyaların sayının artması gözlənilirmi?***

- Bu barədə fikir söyləmək çox çətindir. Onu qeyd etmək istəyirəm ki, ənənəyə uyğun olaraq Azərbaycanda fitrən istedadlı idmançılar, adətən, populyar idman növlərinə üz tuturlar. Mən sizi əmin edirəm ki, bizim Olimpiya, dünya və Avropa çempionlarımız digər idman növlərində uğur qazanmış olsaydılar, peşəkar idmanla məşğul olmaq istəyən uşaq və yeniyetmələr arasında həmin idman növlərinə axın daha çox olardı. Yəni idmançılarımız hansı növdə uğur əldə etmək üçün imkan, şərait varsa, ora üz tuturlar. Əgər fitri istedad varsa, idmançı hansı idman növü ilə məşğul olmasından asılı olmayaraq mütləq uğur qazanacaq. Bizim uşaq və yeniyetmələrimiz əsasən, güləş, boks, cüdo, karate, taekvondo idman növlərinə maraq göstərirlər. Əksinə, kamandan oxatma, badminton, kanoe, eləcə də, qılıncoynatma idman növlərində bunu demək mümkün deyil. Həmin idman növünü seçənlər ancaq və ancaq ona həddindən artıq bağlananlardır. Şahmat bizim ölkədə çox sevilir. Çünki bu idman növünün güclü məktəbi və bazası vardır. Təbii ki, müəyyən idman növlərində güclü bazanın və məktəbin yaranması üçün illər tələb olunur. Qılıncoynatma idman növü hazırda populyar olmasa da, vaxtilə bu sahədə güclü təmsilçilərimiz olub. Məsələn, İlqar Məmmədov Seul-1988 Olimpiya Oyunlarında komanda hesabında qızıl medala layiq görülüb. Demək ki, bu idman növündə müəyyən boşluq yaranıb, ənənələr pozulub. Götürək, elə futbolu. Ölkəmizdə hamı futbolu sevir, amma hələ də dünya səviyyəsində güclü futbolçularımız yetişmir. Amma sovet dönəmində güclü futbol məktəbi formalaşmışdı və istedadlı uşaqları qapı-qapı, məktəb-məktəb axtarır, onlarla ciddi məşğul olurdular. İndi valideyn uşağının əlindən tutub idman bölməsinə gətirməsə, istedadlı uşaqlar diqqətdən kənarda qalırlar.

### "Müstəqillik olmadan heç bir inkişafdan söhbət gedə bilməz"

***- Çingiz müəllim, necə düşünürsünüz, keçid dövrü bizdən çoxmu şey aldı?***

- Məşhur çin filosofu Konfutsi deyirdi ki, bir insana qarğış etmək istəyirsənsə de ki: "Səni görüm, keçid dövründə yaşayasan". Təbii ki, keçid dövrünün müsbət və mənfi tərəfləri vardır. Məhz müsbət dəyişikliklərin üzərində işləyəndə tərəqqi, inkişaf əldə etmək mümkündür. Azərbaycanın keçid dövründə əldə etdiyi ən böyük qazancı yenidən qazandığı müstəqilliyi oldu. Bu, bizim böyük uğurumuzdur. Çünki müstəqillik olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Çox təəssüf ki, hazırda bizdə sovet dövründəki kimi bəstəkarlarımız, musiqiçilərimiz çox az yetişir. Dünya şöhrətli bəstəkarlarımız Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov məhz sovet dönəminin yetirmələridir. Amma onlar hansı şəraitdə yaşayıb-yaratsalar da, azərbaycanlıdırlar. Təbii ki, Nizami, Füzuli, Nəsimi, Qara Qarayev, Rəşid Behbudov kimi sənətkarları olan xalqın yeni nümayəndələri də yetişəcək. Çünki bizim xalqımız çox istedadlıdır.

***- II Avropa Oyunlarında Azərbaycan komandasından hansı nəticələri gözləyirsiniz?***

- Olimpiya Oyunlarından fərqli olaraq Avropa Oyunları üçün proqnoz vermək bir qədər çətindir. Çünki biz rəqiblərimizi tanımırıq. Bu yarışda güclü idmançımızın medal qazanacağını bilirik. Rəqibi tanımadığımız üçün ola bilsin ki, zəif atletimiz də uğur qazansın. 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunlarında gözləmədiyimiz idman növlərində medallar qazandıq. İnanıram ki, Minsk-2019-da komandamızın qazandığı medalların sayı çox olacaq və ilk "10-luq"da yer tuta biləcəyik. II Avropa Oyunlarında əsasən, güləş, cüdo, boks idman növlərində medal gözləyirik. Mənim proqnozlarıma görə, hardasa 8-10 qızıl medalımız mütləq olacaq. Bu Oyunların Tokio-2020 Olimpiadasının heyətinin müəyyənləşməsində də böyük rolu var.




***- Əksəriyyət elə düşünürdü ki, II Avropa Oyunlarının məşəl estafetinə məhz Bakıdan start veriləcək. Amma bu, baş vermədi?***

- II Avropa Oyunlarının məşəlinin Azərbaycanda yandırılması əvvəllər müzakirə olunmuşdu. Avropa Olimpiya Komitəsinin (AOK) sabiq prezidenti, Avropa Oyunlarının yaradılmasının təşəbbüskarı Patrik Hikki də bununla bağlı öz razılığını vermişdi. Rəhbərlik dəyişdikdən sonra bu söhbət aktuallığını da itirdi. Beləliklə, II Avropa Oyunlarının məşəlinin İtaliyanın paytaxtı Romada yandırılması məsləhət bilindi.

### "Azərbaycan günü" tədbiri təşkil ediləcək"

***- II Avropa Oyunlarında "Azərbaycan günü" çərçivəsində tədbirin təşkili nəzərdə tutulurmu?***

- Yarışların açılış mərasimi iyun ayının 21-də keçiriləcək. Açılış mərasimindən bir gün əvvəl, iyunun 20-də Minsk şəhərində I Avropa Oyunlarının vətəni olan ölkəmizin şərəfinə "Azərbaycan günü" tədbiri təşkil ediləcək. Bu tədbirdə ölkəmizin tanınmış incəsənət ustaları, müğənnilər iştirak edəcəklər. Həm də burada Bakı-2015 Avropa Oyunlarından bəhs edən foto-sərgi nümayiş etdiriləcək. Qonaqlar Azərbaycan mətbəxinin ləziz yeməklərindən, şirniyyatlarından dadmaq imkanı əldə edəcəklər.

***- III Avropa Oyunlarına ev sahibliyi edəcək şəhərin adı nə vaxt açıqlanacaq?***

- Növbəti Avropa Oyunlarına ev sahibliyi ilə bağlı namizədlik ərizələrinin son qəbul günü may ayının 31-ə təsadüf etdi. İyun ayının 22-də Minsk şəhərində AOK İcraiyyə Komitəsinin fövqəladə iclasında ev sahibinin adı açıqlanacaq. Düşünürəm ki, Minskdən sonra estafeti Polşanın Krakov şəhəri qəbul edəcək. .

***- Azərbaycanda keçiriləcək Avropa Gənclər XV Olimpiya Festivalı ilə bağlı nə deyə bilərsiniz?***

- Avropa Gənclər XV Olimpiya Festivalı ölkəmizdə ilk dəfə keçiriləcək. Yarışlara hazırlıq yüksək səviyyədə gedir. Olimpiya Festivalına demək olar ki, bir ay vaxt qalıb. Bütün idman qurğuları yarışlara tam hazırdır. Burada sınaq yarışları keçirilir. Festivalda ən çox idmançı sayı atletika idman növündə müşahidə olunur. Bu yarışların keçiriləcəyi Tofiq Bəhramov adına stadionda son tamamlama işləri gedir. Ev sahibi olan ölkənin qarşısındakı iki məsələdən biri yüksək səviyyədə təşkilatçılıq, digəri isə komandanın uğurudur. Azərbaycan Avropa Gənclər Olimpiya Festivaında tam heyətlə iştirak edəcək. Yarışların açılış mərasimi rəsmi və təntənəli şəkildə deyil, bayram kimi qeyd olunacaq. "Baku Kristall Hall"da təşkil ediləcək tədbirdə yeniyetmə idmançılar bu günü bayram edəcək, şənlənəcəklər.

***- Azərbaycan komandası Tokio-2020 Olimpiadasına ilk lisenziyanı atletika idman növündə əldə etdi. Bununla bağlı fikirlərinizi bilmək istərdik.***

- Ötən olimpiadalarda, adətən, idmançılarımız ilk lisenziyanı atıcılıq idman növündə əldə edirdilər. Çünki cədvəl etibarı ilə onların yarışları daha tez başlayırdı. Bu da idman növləri üzrə beynəlxalq federasiyaların qərarından asılı olan bir məsələdir. Elə beynəlxalq federasiyalar var ki, orada son günə qədər lisenziya yarışları davam edir. Elə federasiya da var ki, konkret vaxt, yəni məhdudiyyəti qoyulur. Məsələn cüdoda vəziyyət tamamilə fərqlidir. Burada lisenziya beynəlxalq reytinqə görə müəyyən edilir. Adətən lisenziya yarışlarına olimpiadaya bir il qalmış start verilirdi. Tokio-2020-yə isə mayın 1-də, yəni olimpiadaya 1 il 3 ay qalmış başlandı. May ayında təşkil edilən atletika yarışlarında Anna Skidan uğurla çıxış edərək normativi yerinə yetirdi. Deməli, Azərbaycan Atletika Federasiyası seçimi düzgün etməyi bacarıb. Hələ 2 il bundan əvvəl bizim təqdimatımızla Skidan Beynəlxalq Olimpiya Komitəsinin təqaüdünə layiq görülmüşdü. Atletimiz bizim etimadımızı doğrultdu. Bu, çox yaxşı nəticədir.

### "Tokio-2020 Olimpiadasına hazırlıqlara artıq başlamışıq"

***- "Gündoğar" ölkədə keçirilən XXXII Yay Olimpiadasına hazırlıq barədə nə deyə bilərsiniz?***

- Tokio-2020 Olimpiya Oyunlarına hazırlıq prosesi lisenziyalar əldə olunduqdan, federasiyalar üzrə heyət müəyyən olunduqdan sonra start verilir. Milli yığmalar öz işlərini qrafik əsasında qurur və təlim-məşq toplanışlarını harada və necə keçirmək barədə özləri qərar verirlər. Azərbaycan Milli Olimpiya Komitəsi olaraq Tokio-2020 Olimpiadasına hazırlıqlarla artıq başlamışıq. MOK idmançıların geyimi, gediş-gəlişi, yerləşdirilməsi, qidalanması və bir sıra təşkilatı məsələlərlə indidən məşğuldur.

***- Paris-2024 Olimpiadasından nələri gözləyirsiniz?***

- Olimpiadanın proqramında müəyyən dəyişikliklər ediləcəyi və yeni idman növlərinin daxil ediləcəyi gözlənilir. BOK-un növbəti sessiyasında çox güman ki, bu məsələlərə baxılacaq və qərarlar qəbul ediləcək.

Adətən, dünyanın məşhur, daha dəqiq desək, əhalinin sıx yaşadığı şəhərlərdə təşkilatçılıq nöqteyi-nəzərindən problemlər yaşanır. Məsələn, elə götürək nəqliyyat problemini. Tıxaclar yaranacaq və s. Bu səbəbdən son vaxtlar BOK Olimpiya Oyunlarını bir deyil, bir neçə şəhərdə təşkil etməyi planlaşdırır.

***- Çingiz müəllim, futbol azarkeşi kimi UEFA Avropa Liqasının Bakı finalı ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı. Hansı komandaya azarkeşlik edirdiniz?***

- Azərbaycan bütün mötəbər tədbirlərdə olduğu kimi, Bakı UEFA Avropa Liqasının finalına da uğurla ev sahibliyi etdi. Qonaqların və turistlərin yerləşdirilməsi, nəqliyyat, təhlükəsizlik yüksək səviyyədə təşkil olunmuşdu. Bir futbol azarkeşi kimi final matçının 2-ci hissəsi daha çox xoşuma gəldi. Oyun dinamik və gərgin keçdi, çoxlu qol vuruldu. İngilis komandalarının iştirakı ilə ilk oyun idi ki, qalmaqalsız ötüşdü. Komandaya gəlincə, "Liverpul"a azarkeşlik edirdim.

***Səadət Hakıyeva***



# II AVROPA OYUNLARI

## Minsk-2019-a yollanacaq idmançılar və nümayəndə heyəti ilə görüş keçirilib

(əvvəli 1-ci səhifədə)

Yarışa böyük nümayəndə heyəti ilə yollanacaqlarını vurğulayan Çingiz Hüseynzadə qeyd edib ki, Oyunların açılış mərasimində idmançıların paradında Azərbaycan 80 nəfərlə təmsil olunacaq.

Sonra tədbir iştirakçılarına komanda üzvlərinin Minskdə qarşılanmaları və yarışda iştirak məsələləri barədə bir sıra məlumatlar verilib.

Təqdimatda həmçinin, Atletlər Kəndi, idman obyektləri komandamızın qalacağı yer və könüllülər barədə də ətraflı məlumat verilib.

Bildirilib ki, Azərbaycanı Oyunlarda atletlərlə yanaşı, 6 könüllü də təmsil edəcək.

Tədbirdə çıxış edən Minsk-2019 Avropa Oyunlarının Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar Bağırov isə Minskə ilk olaraq yollanacaq komandalar barədə məlumat verib. "Komandamız iyunun 18-də Minskə yollanacaq. Qadın güləşçilərimiz Minskdə təlim-məşq toplanışındadırlar. İyunun 8-də Oyunların keçiriləcəyi məkana yollanan qadın güləşçilərimiz Minskdə yerli komanda ilə birgə toplanışını davam etdirir. Bundan başqa, Belarusa Bakıdan ilk olaraq cüdo, boks və atıcılıq üzrə yığma komandalarımız gedəcək", - deyə Anar Bağırov qeyd edib.

Tədbir çərçivəsində Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) əməkdaşı Lalə Hacıyeva Minsk-2019 üçün Antidopinq məsələləri



və istifadəsi qadağan olunmuş dərman və məhsullar haqqında məlumat verib.

Tədbir sual-cavab sessiyası ilə başa çatdı.

Məlumat üçün bildirək ki, iyunun 21-30-da keçiriləcək II Avropa Oyunlarında Azərbaycan komandası 11 idman növü üzrə 82 idmançı ilə təmsil olunacaq.




## Şanxaydan iki medal

Azərbaycan komandası Şanxayda keçirilmiş Karate 1 Premyer Liqa turnirini iki medalla başa vurub. Karateçilərimiz Firdovsi Fərzəliyev (60 kq) və Pənah Abdullayev (84 kq) mötəbər turnirdə üçüncü yeri tutublar. Onlar bürünc medal qazanmaqla yanaşı, müxtəlif reytinq cədvəllərində yerlərini də möhkəmləndiriblər. Dünya Karate Federasiyasının (WKF) rəsmi yarışlarından olan Karate 1 Premyer Liqa turniri mövsümünün dördüncü mərhələsində 76 ölkədən 543 idmançı iştirak edib. Yarışdan əvvəl müxtəlif ölkələrdə təlim-məşqlərə qatılan milli komandanın üzvləri ikinci Avropa Oyunlarına hazırlıqları davam etdirəcəklər.

## *Badminton yarışında təmsilçimizin rəqibləri müəyyənləşdi*

İyunun 21-30-da Minskdə keçiriləcək II Avropa Oyunlarının badminton yarışında Azərbaycan təmsilçisi Ezmi Qovimuramadhoninin kişilərin şəxsi yarışında rəqibləri müəyyənləşib. Yarışda G qrupunda mübarizə aparacaq Ezminin rəqibləri Rusiya idmançısı Vladimir Malkov, Lüksemburq təmsilçisi Robert Mann və rumıniyalı Kollinz Valentin Filimondur. Minsk 2019-da badminton yarışları iyunun 24-dən 30-dək baş tutacaq. Kişilərin mübarizəsində şəxsi hesabda 32 idmançı mübarizə aparacaq.




## "Bizim idmançılar təqribən 70 medal qazana biləcəklər"



Rusiyalı idmançılar Minskdə keçiriləcək Avropa Oyunlarında ümumkomanda hesabında birinci yeri tutmalıdırlar. Rusiya Olimpiya Komitəsinin prezidenti Stanislav Pozdnyakov bu fikri Peterburq Beynəlxalq İqtisadi Forumunda TASS agentliyinə müsahibəsində söyləyib. O, deyib:

"Bakıda ümumkomanda hesabında birinci yeri tutduğumuzu nəzərə alaraq, əlbəttə, bu dəfə aşağı nəticə qazanmağa yol verə bilmərik. Biz komanda hesabında qələbə uğrunda mübarizə aparacağıq. Düşünürəm ki, bizim idmançılar təqribən 70 medal qazana biləcəklər, bu medalların azı 30-u qızıl medal olacaq. Bakıda və Minskdə mükafatların sayını dəqiqləşdirə bilmərəm, çünki proqramlar fərqlidir. Minskdə təşkilatçılar idman növlərinin sayını azaldıblar. Ona görə də Bakıda qazandığımız rekordlara bu dəfə də nail olmaq fiziki cəhətdən qeyri-mümkündür. Bununla belə, bizim yaxşı komandamız var. 225 idmançıdan 58-i əməkdar idman ustasıdır". Avropa Oyunları iyunun 21-dən 30-dək Minskdə keçiriləcək. Xatırladaq ki, tarixdə ilk Avropa Oyunları 2015-ci il iyunun 12-dən 28-dək Bakıda keçirilib.

## İki sərbəst güləşçimiz Avropa çempionu oldu

İyunun 3-dən 9-dək İspaniyanın Pontevedra şəhərində gənc güləşçilər arasında keçirilən Avropa çempionatına yekun vurulub.

Azərbaycan güləş yığması yarışlarda uğurla çıxış edib. Komandamız ümumilikdə, 6 (2 qızıl, 2 gümüş və 2 bürünc) medal qazanıb. İki təmsilçimz Avropa çempionu adına layiq görülüb.

Qızıl medalları komandamıza sərbəst güləşçilərimiz Turan Bayramov və Abubakr Abakarov qazandırıb.

Yeniyetmələr arasında dünya, Avropa və Olimpiya çempionu Turan Bayramov (65 kq) 1/8 finalda güclü rəqiblə üz-üzə gəlib. Təmsilçimiz Gürcüstan idmançısına minimal fərqlə qalib gəlib. Turan daha sonra Fransa təmsilçisini üstələyərək yarımfinala yüksəlib. Gəncə güləş məktəbinin yetirməsi yarımfinalda Moldova güləşçisinin də öhdəsindən gələrək adını finala yazdırıb. Həlledici qarşılaşmada Rusiya təmsilçisiylə üz-üzə gələn sərbəst güləşçimiz sonuncu xal prinsipinə əsasən qalib gələrək Avropa çempionu adına layiq görülüb.

Abubakr Abakarov (79 kq) qitə birinciliyinə inamlı start verib. Təmsilçimizə Belarus güləşçisini məğlub etmək üçün cəmi 1 dəqiqə 30 saniyə kifayət edib. Yığmamızın üzvü Litva idmançısını da vaxtından əvvəl məyus edərək finala vəsiqə qazanıb. Bu mərhələdə eston rəqibinə də göz açmağa imkan verməyərək vaxtından əvvəl qələbə qazanıb və finala yüksələn ikinci sərbəst güləşçimiz olub. Həlledici qarşılaşmada Rusiya güləşçisini də məğlub



edən Abubakr Avropa çempionu adını qazanıb.

Avropa çempionatını sərbəst güləşçilərimizdən Asxab Həmzətov (92 kq) gümüş, İslam Abuyev (125 kq) isə bürünc medalla başa vurub. Beləliklə, sərbəst güləş üzrə yığmamız 115 xalla komanda hesabında 3-cü yeri tutub. Rusiya komandası isə 205 xalla Avropa çempionu olub.



Yunan-Roma üzrə komandamız yarışlarda cəmi 2 medal qazanıb. Zaur Əliyev (55 kq) yarışların gümüş mükafatını alıb. Əsgər Əlizadə (60 kq) isə bürünc medalı boynundan asıb.

Təəssüf ki, qadın güləşi üzrə komandamız yarışları medalsız başa vurub.

Qeyd edək ki, qitə birinciliyində beynəlxalq dərəcəli hakim Tural Əliyev ədaləti qoruyub.

## Beynəlxalq turnirdə uğurlu çıxış

Bədii gimnastımız Nərmin Bayramova Qazaxıstanın Çimkənt şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış edib.

Gənclərin yarışında ölkəmizi təmsil edən gimnastımız çoxnövçülük proqramında 63.050 xal toplayaraq bürünc medala sahib olub.

Böyük gimnastların mübarizəsində isə Yelizaveta Luzan (58.050 xal) turniri dördüncü, Fatimə Əkbərova (55.850 xal) altıncı yerdə başa vurub.

* * *

Milli Gimnastika Arenasının köməkçi zalında batut gimnastikası üzrə 5-ci, tamblinq üzrə isə 17-ci Bakı çempionatı və birinciliyi təşkil edilib.

Yarışlarda Bakı Gimnastika Məktəbinin, "Ocaq Sport" və "Neftçi" idman klublarının kişi və qadın təmsilçiləri balacalar, uşaqlar, yeniyetmələr, gənclər, böyüklər yaş kateqoriyalarında çıxış ediblər.

Yarışlarda təcrübəli gimnastlarla yanaşı, paytaxtın azyaşlı batutçu və tamblinqçiləri də məharətlərini sınayıblar. Yarışlarda gimnastikanın hər iki növü üzrə bütün yaş kateqoriyalarında mükafatlandırma mərasimi olub. Bəzi yaş qruplarında idmançı sayı az olduğundan onlara yalnız hədiyyələr təqdim edilib.

Turnirin sonunda batut gimnastikası üzrə milli komandanın üzvü Ruslan Ağamirov Gənclər və İdman Nazirliyi tərəfindən "İdman ustası" adı ilə təltif olunub.

Akrobatlar və idman gimnastları isə 26-cı Azərbaycan və Bakı birinciliyində mübarizə aparıblar.

Milli Gimnastika Arenasının köməkçi zalında akrobatika üzrə 26-cı Azərbaycan və Bakı birinciliyi, həmçinin idman gimnastikası üzrə 26-cı ölkə birinciliyi və paytaxt çempionatı start götürüb. İki gün davam edəcək yarışa idman gimnastları start veriblər. İştirakçılar yarışlar ərzində böyüklər, gənclər, yeniyetmələr, uşaqlar, balacalar və kiçiklər yaş kateqoriyasında medallar uğrunda mübarizə aparırlar.

Akrobatlar isə yeniyetmələr, uşaqlar və balacalar yaş kateqori-



yasında yer alaraq, qadın və kişi cütlükləri, qarışıq cütlüklər, qadın və kişi qrupları proqramında yarışacaqlar.

Gimnastikanın hər iki növü üzrə yarışlarda ümumilikdə 100-ə yaxın idmançı Bakı Gimnastika Məktəbi, "Ocaq Sport", "Neftçi" klubları, Nizami rayonu idman məktəbi, Sumqayıt və Balakəni təmsil edirlər.



# II AVROPA OYUNLARI

## Yığma komandamızın üzvləri Minsk sınağına hazırdır

İyun ayının 21-dən 30-dək bütün dünyanın diqqəti Belarusa yönələcək. Belə ki, Belarusun paytaxtı Minskdə II Avropa Oyunları təşkil olunacaq. Bu mötəbər yarışda Azərbaycan 11 idman növü üzrə 82 idmançı ilə təmsil olunacaq. "Olimpiya dünyası" qəzeti ölkəmizi yarışlarda təmsil edəcək idmançıların və federasiya rəsmilərinin fikirlərini təqdim edir.

### "İnanıram ki, komandamız Minskdən vətənə medallarla qayıdacaq"

*Elmar Babanlı (Azərbaycan Cüdo Federasiyasının baş katibi):*

- Digər idman növlərində olduğu kimi, cüdoçularımız da ikinci Avropa Oyunlarına ciddi hazırlaşırlar. Komandamız bunun üçün ölkəmizlə yanaşı, Avstriyada, Yaponiyada və digər ölkələrdə hazırlıq keçib. Hazırda kişilərdən ibarət mili komandamızın üzvləri Zuğulbada yerləşən "Təhsil" Respublika İdman Mərkəzinin təlim-məşq bazasında hazırlıq keçirlər. Toplanış iyunun 15-də başa çatacaq. İyunun 18-də isə cüdoçularımız Minskə yola düşəcəklər. Komandamız bu Oyunlarda 9 kişi və 6 qadın cüdoçu ilə təmsil olunacaq. İkinci Avropa Oyunları çərçivəsində cüdo yarışları iyunun 22-25-də keçiriləcək. Yarışın sonuncu günündə komanda yarışları təşkil olunacaq. Komandamız Minskə güclü heyətlə yollanır. Heyətdə yer alan idmançıların hər biri güclü potensiala malikdir. Qeyd edim ki, bu yarışda heyətimizdə Olimpiya Oyunlarının, I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının və bir sıra mötəbər yarışların mükafatçıları var. İnanıram ki, komandamız Minskdən vətənə medallarla qayıdacaq.



### "Bizə olan etimadı nəticələrimizlə sübut etməyə çalışacağıq"

*Sabah Şəriəti (yunan-Roma güləşçisi):*

- Minsk-2019-a artıq az vaxt qalıb. Məşqlərimiz hər gün keçirilir. Bakıda təşkil olunan I Avropa Oyunlarında gümüş medala layiq görülmüşdüm. Çox istəyirəm ki, Minskdəki yarışda da mükafatçılar sırasında yer alım. Bunun üçün çox çalışıram. Federasiyamız bizə hər cür şərait yaradır. Paytaxtda və bir sıra ölkələrdə təlim-məşq toplanışlarında iştirak etmişik. Minskdə bizə olan etimadı nəticələrimizlə sübut etməyə çalışacağıq.



### "İnanıram ki, Minksdən medalla qayıdacağam"

*İslam Abbasov (yunan-Roma güləşçisi):*

- II Avropa Oyunlarına yüksək səviyyədə hazırlaşmışıq. Komandamızda ümumi ab-hava yüksəkdir. Heç bir zədə və ya psixoloji gərginlik yoxdur. Hər kəs yarışlarda bizdən yüksək nəticələr gözləyir. Eləcə də, bu yarışdan. Ölkəmizə bu çətin sınaqdan medalla qayıtmaq istəyirəm. Federasiyamız bizə bu işdə çox dəstək olur. Oyunlara hazırlıqla bağlı bir sıra yerli və beynəlxalq səviyyəli təlim-məşq toplanışlarında iştirak etmişik. Artıq Olimpiya Güləş Mərkəzində Minsk-2019-un son hazırlıq prosesində iştirak edirik. Hazırlıqda fiziki, taktiki-texniki çalışmalara üstünlük veririk.

İnanıram ki, Minksdən medalla qayıdacağam.



### "Minskə qızıl medal qazanmaq üçün yollanacağam"

*Hidayət Heydərov (cüdoçu):*

- Hazırlıqlarımız öz tempi ilə davam edir. Hazırda Zuğulbada təlim-məşq toplanışında iştirak edirik. Növbəti sınağımız Minskdə təşkil olunacaq ikinci Avropa Oyunlarıdır. Yarış və hazırlıqla bağlı hər şey qaydasındadır. Özümə inanıram. Minskə qızıl medal qazanmaq üçün yollanacağam. Ümid edirəm ki, məqsədimə nail olacağam.



*Müsahibə*





## Orxan Səfərov: "Qızıl medal heç kimə asanlıqla qismət olmur"

2015-ci ildə ölkəmizin ev sahibliyi etdiyi Avropa Oyunları bu dəfə Belarusun paytaxtı Minsk şəhərində keçiriləcək. Avropa idmançıları bu böyük və nüfuzlu yarış üçün artıq son məşqlərini keçirlər. İyunun 21-dən 30-dək təşkil ediləcək II Avropa Oyunlarında Azərbaycan cüdoçuları da mübarizə aparacaqlar. Komandamız Minskdə 15 (9 kişi, 6 qadın) cüdoçu ilə təmsil olunacaq. Onlardan 60 kq çəki dərəcəsində tatami üzərinə çıxacaq Orxan Səfərov Bakı-2015-də fəxri kürsüyə qalxan yeganə cüdoçumuzdur. O, Bakıda təşkil olunan birinci Avropa Oyunlarında gümüş medala sahib çıxmışdı. Görəsən, Orxan Səfərov II Avropa Oyunlarına necə hazırlaşır? Özündən hansı nəticəni gözləyir? Birinci Avropa Oyunlarında olduğu kimi, Minskdə də mükafatçılar sırasında yer ala biləcəkmi? Bu və digər suallara cavab tapmaq üçün cüdoçumuzla həmsöhbət olduq.

***- Orxan, II Avropa Oyunlarına hazırlıqlar necə gedir?***

- Hazırlıqlarımız yanvar ayından başlayıb. Demək olar ki, artıq başa çatır. İndiyə kimi müxtəlif ölkələrdə, həmçinin respublikamızın müxtəlif bölgələrində təlim-məşq toplanışlarında iştirak etmişik. Hazırda Zuğulbada təlim-məşq keçirik. Gündə iki dəfə məşq edirik. Bəzən yoruluruq. Ancaq nəticə istəyiriksə, iradəli olmalıyıq. Federasiya bizim üçün hər cür şərait yaradır. Bizə göstərilən etimadı Minskdə doğruldacağımıza inanıram.

***- Komandada ümumi ab-hava necədir?***

- Hər kəs özünü II Avropa Oyunlarına kökləyib. Məşqçilərimizin köməkliyi ilə həm fiziki, həm texniki-taktiki, həm də psixoloji hazırlığımızı artırmağa çalışırıq. Əlbəttə, Avropa Oyunları kimi mötəbər yarışda təsadüfi idmançı iştirak edə bilməz. Yəni biz hamımız müəyyən təcrübəyə, peşəkarlığa sahibik. Çalışacağıq ki, Minskdən bir yox, bir neçə medalla qayıdaq.



***- Bakıda təşkil olunan birinci Avropa Oyunlarında cüdoçularımızdan komandamıza yeganə medalı sən qazandırmışdın. Necə düşünürsən, bu dəfəki yarışda gümüş medalı qızılla əvəz edə biləcəksənmi?***

- Sözsüz ki, əsas məqsədim budur. Bildiyiniz kimi, Bakı-2015-də zədəli olduğum üçün finalda məğlub oldum. Belə yarışlarda finalda uduzmaq idmançıya çox pis təsir edir. Qızıl medal isə heç kimə asanlıqla qismət olmur. Yalnız haqqı çatanlar çempion ola bilirlər. Çıxış edəcəyim çəki dərəcəsində kifayət qədər güclü rəqiblər olacaq. Lakin bu dəfə istəyirəm ki, Minksdən Vətənə qızıl medalla qayıdım. Ümid edirəm ki, arzuma çatacağam.

***- Bəs millimizin nəticəsi ilə bağlı nə düşünürsən?***

- İndidən nəticə barəsində bir söz demək çətindir. Əsas məqsədimiz Minskdə mükafatçılar sırasında yer almaqdır. Yığma komandanın heyətindəki bütün idmançılar müxtəlif beynəlxalq yarışlarda öz sözünü demiş cüdoçulardırlar. Lakin nəzərə almaq lazımdır ki, rəqiblərimiz də güclüdür. Hər şeyi zaman göstərəcək. Nə qədər ki, vaxtımız var bütün gücümüzlə Oyunlara hazırlaşmalıyıq.

### "Hər şey idmançının yer alacağı qrupdan asılıdır"

*Bəxtiyar Hacıyev (Sambo üzrə yığma komandanın baş məşqçisi):*

- Hazırlıqlarımız davam edir. Bu yaxınlarda Abşeron Olimpiya İdman Kompleksində təlim-məşq toplanışında iştirak etdik. Yarışa son hazırlıq prosesimizi də Abşeron Olimpiya İdman Kompleksində keçəcəyik. II Avropa Oyunlarında 6 kişi, 1 qadın olmaqla 7 samboçu ilə yollanacağıq. Onların hər biri kifayət qədər bacarıqlı idmançıdır və hər birinə də çox inanırıq. Heyətdə ən gənc idmançı Abdulla Abdullayevdir. O, bəlkə də, II Avropa Oyunlarının ən kiçikyaşlı idmançısıdır. Abdullanın bu yarışda medal əldə etməsi onun üçün iki qat qələbə ola bilər. Cavidan Qarayev, Ceyhun Hüseynov dünya və Avropa çempionatlarında öz sözlərini demiş idmançılardır. Bu nəticələrə əsasən, deyə bilərik ki, onlar yarışın favoritlərindəndirlər. Lakin idman, xüsusilə də bu cür nüfuzlu yarışlar sürprizlərlə doludur. Yarışda hər şey idmançının yer alacağı qrupdan, yəni püşkdən asılıdır. Ona görə də dəqiq bir söz demək çətindir. Bütün yetirmələrimizə inanırıq və arzulayırıq ki, onlar öz nəticələri ilə xalqımızı sevindirsinlər.



### "Çalışacağam ki, Minskdə son ana qədər mübarizə aparım"

*Emil Həsənov (samboçu):*

- Keçən il dünya çempionatında gümüş, Avropa çempionatında isə bürünc medala sahib çıxdım. Kifayət qədər təcrübəm var. Medal qazanacağıma inanıram. Nə qədər peşəkar olsan da, yarış zamanı gərək rəqiblərini yaxşı təhlil edəsən. Xüsusilə də belə böyük yarışlarda bu çox vacib məsələdir. Peşəkar idmanda bir qayda var: son ana kimi mübarizə apar və sürprizlərə hazır ol. Mən də çalışacağam ki, Minskdə son ana qədər mübarizə aparım. Bunun üçün yorulmadan məşqlərimizi davam etdirir們ik. Ümid edirəm ki, hər şey yaxşı olar, çəkdiyimiz zəhmətin bəhrəsini görərik.



### "Qələbə üçün bütün gücümüzü səfərbər edəcəyik ki, Minskdən medalla qayıdaq"

*Ağasif Səmədov (samboçu):*

- II Avropa Oyunlarına artıq az bir vaxt qalıb. Həyəcan yoxdur. Amma bu o demək deyil ki, yarışa etinasız yanaşırıq. Əksinə, qələbə üçün bütün gücümüzü səfərbər edəcəyik ki, Minskdən medalla qayıdaq. Tarixi günlərə az qalıb. İnanıram ki, biz də bu tarixə adımızı yaza biləcəyik.



## Azərbaycan "İdman - yüksək incəsənət" sərgisində təmsil olunur

Bakı 2015 Birinci Avropa Oyunları zamanı Azərbaycan heykəltəraşları tərəfindən müxtəlif idman növlərinə aid yaradılan heykəllər Belarusda keçirilən "İdman - yüksək incəsənət" sərgisində nümayiş olunur. II Avropa Oyunları çərçivəsində təşkil olunan sərgi iyunun 6-da Minskdə açılıb. Belarus Respublikasının Mədəniyyət Nazirliyi və Müasir İncəsənət Milli Muzeyinin təşkilatçılığı ilə keçirilən "Avropa oyunları - Avropa incəsənəti" adlı genişmiqyaslı layihənin tərkib hissəsidir.

Sərgidə Almaniya, Belarus, Böyük Britaniya, İspaniya, Litva, Polşa, Rusiya və digər ölkələrin fotoqraf və rəssamları ilə yanaşı Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycandan olan rəssam və heykəltəraşların da əsərləri yer alıb.

Minsk sakinləri və qonaqlarına idman mövzusunu mədəni, tarixi və sosial kontekstdə əks etdirən əsərlərdən - arxiv fotoları və müasir fotoqrafiya layihələrindən, plakatlar, videomateriallar və heykəltəraşlıq nümunələrindən ibarət ekspozisiya təqdim olunur.

"İdman - yüksək incəsənət" sərgisi avqustun 4-dək davam edəcək.

Qeyd edək ki, II Avropa Oyunları iyunun 21-30-da keçiriləcək. Yarışın mədəniyyət proqramına isə mayın 1-dən start verilib.

# II AVROPA OYUNLARI



# II Avropa Oyunları Minskin 12 idman arenasında keçiriləcək

*Minsk-2019 II Avropa Oyunları üçün təşkilatçı ölkə 12 idman obyektini təqdim edib. Hələ Minskin ev sahibliyi təsdiqləndiyi vaxtdan etibarən Belarus hökuməti bütün idman qurğularını təmir etmiş və onları standartlara uyğun vəziyyətə gətirmişdir. Əsa idman arenası kimi paytaxtda yerləşən "Dinamo" stadionu nəzərdə tutulub. Velosiped yarışları isə şəhərin əsas mərkəzi sayılan Oktyabr meydanında təşkil olunacaq. "Olimpiya dünyası" qəzeti II Avropa Oyunlarına həsr olunmuş xüsusi buraxılışında yarışların keçirildiyi arenalar barəsində geniş məlumatı oxucularına təqdim edir.*

## Çijovka Arena

Çijovka Arena ikinci Avropa Oyunları çərçivəsində keçiriləcək cüdo və karate yarşlarına ev sahibliyi edəcək. Bu kompleks kütləvi idman tədbirlərinin keçirilməsi üçün nəzərdə tutulub. Arenada keçi-



rilən idman və mədəni tədbirləri eyni vaxtda 8807 nəfər tamaşaçı izləyə bilər. Bundan başqa, arenanın kiçik zalında 473 tamaşaçı üçün yer ayrılıb. Kompleksin buz meydançası ərazisinə görə Minsk-Arenadan sonra ikinci yerdədir. Elə bu məqsədlə 2009-cu ildən etibarən Çijovka Arenada buz üzərində hokkey üzrə dünya çempionatına ev sahibliyi etmək hüququnu qazanıb. Arenanın rəsmi açılış mərasimi 2013-cü il dekabrın 25-də keçirilib. Arenada buzüstü hokkeylə yanaşı, fiqurlu konkisürmə və digər qış idman növlərinin keçirilməsi də mümkündür. Bu idman qurğusu Yay Olimpiya idman növləri üçün də xarakterikdir. Arenada idman çoxnövçülüyü, boks, ağırlıqqaldırma, tennis və digər növlər üzrə yarışlar təşkil oluna bilir. Qeyd edək ki, Çijovka Arena Belarusun "Yunost-Minsk" hokkey klubunun ev oyunlarını keçirmək üçün nəzərdə tutulub.

## Falcon klub

Paytaxtın ən müasir idman əyləncə komplekslərindən biri olan Falcon Klub ikinci Avropa Oyunlarında badminton yarışlarına ev sahibliyi edəcək. Bu idman qurğusu 2016-cı ildə istifadəyə verilib. Arena



ilk baxışdan qırğıya bənzəyir. Burada istənilən idman növü üzrə (hokkeydən başqa) yarışların keçirilməsi mümkündür.

## Minsk-Arena

Oyunların ən böyük idman qurğusu hesab olunan Minsk-Arenada atçılıq, akrobatika, aerobika, idman gimnastikası, bədii gimnastika, batut və trek üzrə yarışlar keçiriləcək. Minsk-Arenada keçirilən kütləvi idman yarışlarını 15 min azarkeş izləyə bilər. Velodromda 2 min, atçılıqda isə 3 min yer tamaşaçıların ixtiyarına verilib.



Məlumat üçün bildirək ki, arenada yerləşdirilmiş 8 ekranlı monitor Avropanın ən ağır monitoru hesab olunur (18 ton).

Qeyd etdiyimiz kimi, Minsk-Arenada indiyə qədər bir sıra beynəlxalq yarışlar təşkil olunub. Belə ki, bu arenada 2009-cu ildə trek üzrə Avropa çempionatı, 2011-ci ildə bədii gimnastika, 2013-cü ildə boks üzrə qitə çempionatı, 2012-ci ildə yeniyetmələr arasında fiqurlu konkisürmə, 2013-cü ildə trek, 2014-cü ildə hokkey, 2015-ci ildə isə futzal üzrə dünya çempionatları keçirilib.

## Oktyabr Meydanı

İkinci Avropa Oyunları çərçivəsində velosipedin şosse növündə keçirilən yarışlarda idmançılar bu



meydanda mübarizə aparacaqlar. Həmin meydan ümumilikdə Minskin mərkəzini əhatə edir. Uzunluğu 15 km olan meydan "Müstəqillik" prospekti, Yanki Kupalı, Kuybişeva, Kommunist, Kisilev, Pervomayskoy, Lenin Ulyanovsk, Karl-Marks, Engels və digər küçələri özündə birləşdirir. Fərdi yürüşlərdə 1 dövrə 14.13 km məsafədir. Yarışların startı və finişi Oktyabr Meydanında olacaq.

## Dinamo stadionu



Bu idman qurğusu Belarusun ən böyük idman arenası sayılır. İkinci Avropa Oyunlarının açılış və bağlanış mərasimlərinə, eləcə də, Oyunların atletika yarışlarına ev sahibliyi edəcək Dinamo Arena yenidənqurmadan sonra 34 min azarkeş tutumuna malikdir. Stadionun açılış mərasimi 1934-cü il iyun ayının 12-də olub. Stadion 1939-cu ildə yenidən təmir olunub. İkinci Dünya Müharibəsindən sonra stadion ciddi dağıntıya məruz qalıb. 1947-1954-cü illərdə həmin ərazidə yeni stadion tikilib. 1980-ci ildə SSRİ-də keçirilən Yay Olimpiya Oyunları zamanı Dinamo Arenasından istifadə olunub. Burada qrup mərhələsinin 7, 1/4 final mərhələsinin isə 1 matçı keçirilib. Paytaxtın eyni adlı futbol klubu bu stadionda ev oyunlarını keçirir. Hazırda stadionun fasadında Olimpiya Oyunlarının rəmzlərini aydın görmək olar.

## Olimpiyski İdman Sağlamlıq Kompleksi

İkinci Avropa Oyunlarında bu kompleks çimərlik futbolu və kamandan oxatma yarışlarına ev sahibliyi edəcək. Bu kompleks 1998-ci ildə istifadəyə verilib.



Ərazisi 12 hektarı əhatə edir. Kompleksin qarşısındakı Botanika bağı isə öz təmiz havasına və suyuna görə fərqlənir. Çimərlik futbolu üzrə milli stadion 2018-ci ildə istifadəyə verilib. 1300 azarkeş tutumuna malikdir. Elə həmin ilin avqust ayında ikinci Avropa Oyunlarına test xarakteri daşıyan çimərlik futbolu üzrə Avroliqa yarışları keçirilib.

## Palova Arena

Arena Oyunlar zamanı basketbol 3X3 üzrə yarışlara ev sahibliyi edəcək. Bu kompleks İdman Sara-



yının yaxınlığında yerləşir.

Meydança 2015-ci ildə basketbolçuların ixtiyarına verilib. Yoxlama məqsədi ilə həmin ilin avqust ayında gənclər arasında Avropa çempionatı keçirilib.

## İdman Sarayı

İkinci Avropa Oyunları çərçivəsində bu idman qurğusunda sambo və güləş yarışları təşkil olunacaq. İdman Sarayı Minskin ən qədim idman qurğularından sayılır. Svisloç çayının sahilində yerləşən



İdman Sarayının təməli 1963-cü ildə qoyulub. 3 il ərzində tikilən sarayın açılış mərasimi mayın 7-də Qələbə Günü ərəfəsində baş tutub. 3311 tamaşaçı tutumuna malik olan sarayda 22 idman növü üzrə yarışların keçirilməsi mümkündür.

## Timoşenko adına Atıcılıq Tiri

Adından da göründüyü kimi, bu kompleksdə atıcılıq yarışları keçiriləcək. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Semyon Timoşenkonun adını daşıyan



kompleks 1971-ci ildə istifadəyə verilib. Bu idman növü üzrə Belarus idmançılarının yetişməsində kompleksin böyük rolu olub. Belə ki, yerli idmançılar indiyə qədər beynəlxalq yarışlarda 30 qızıl medala layiq görülüblər. 2018-ci ildə yenidən bərpa olunan kompleks hazırda dünya standartlarına cavab verib.

## "Sportinq Klub"

İkinci Avropa Oyunlarında iştirak edəcək stend atıcıları bu arenada hədəfi nişan alacaqlar. "Sportinq Klub"u 2003-cü ildə istifadəyə verilib. 2005-ci ildə





yığma komandanın məşq bazasına çevrilib. Texniki imkanlarına görə "Sportinq Klub" Avropanın ən yaxşı atıcılıq mərkəzlərindən biri sayılır. Belə ki, 2006-cı ildə Avropa çempionatı, 2008-ci ildə Dünya Kubokunun finalı, 2009-cu ildə isə mərhələ yarışları "Sportinq Klub"da təşkil olunub.

## "Uruçye" İdman Sağlamlıq Kompleksi

İkinci Avorpa Oyunlarında qüvvələrini sınayacaq boksçular bu arenaya toplaşacaqlar. 1976-cı ildə əsası qoyulan bu kompleksdə atletika, voleybol, həndbol və futzal yarışları keçirilir. Kompleksin adı



2016-cı ildən etibarən "Uruçye" adlanır. Bu idman qurğusunda təşkil olunan yarışları 3 min azarkeş izləyə bilir. İndiyə qədər "Uruçye" İdman Sağlamlıq Kompleksi bir sıra beynəlxalq yarışlara ev sahibliyi edib. Stolüstü Tennis üzrə Respublika Olimpiya Təlim Mərkəzi stolüstü tennis yarışlarına ev sahibliyi edəcək.

Mərkəz 1978-ci ildə yaradılıb və 2015-ci ildə 2 korpusa ayrılıb. Burada keçirilən kütləvi idman yarışlarını 1235 azarkeş izləyə bilir. Kompleksin açıq və qapalı kortlarında müxtəlif beynəlxalq yarışlar təşkil edilir.

## Avarçəkmə üzrə Respublika Olimpiya Təlim Mərkəzi

Bu mərkəzdə avarçəkmə, baydarka və kanoe üzrə yarışlar keçiriləcək. 2006-cı ildə böyük miqyasda təmirə dayandırılan baza yenidənqurmadan sonra



2011-ci ildə istifadəyə verilib. Zaslav su anbarının yaxınlığında yerləşən baza 2150 kv. metr ərazini əhatə edir. Uzunluğu 130, dərinliyi isə 3,5 metrdir. Qeyd etdiyimiz bu mərkəzdə indiyə qədər müxtəlif yaş qrupu üzrə beynəlxalq turnirlər təşkil olunub.

# II AVROPA OYUNLARI



# Bütün dünya Avropa Oyunlarının həyəcan və sevincini ilk dəfə Azərbaycanda hiss etdi

Son illər böyük inkişaf yolu keçən Azərbaycan bir çox sahələrdə olduğu kimi, idmanda da mühüm uğurlara imza atıb. 2015-ci ilə nəzər yetirdikdə isə ən böyük idman hadisəsi sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının Bakıda keçirilməsi idi. Ölkəmiz 2 ildən çox davam etdirilən yüksək səviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi. Nümunəvi və qüsursuz təşkilatçılığı, olduqca kreativ açılış və bağlanış mərasimləri ilə yaddaqalan I Avropa Oyunları keçirildiyi günlərdə (12-28 iyun) dünyanın əsas idman hadisəsinə çevrildi. 21-i qızıl, 15-i gümüş və 20-si bürünc olmaqla qazandığı 56 medalla Azərbaycan I Avropa Oyunlarının ikincisi oldu. Bunun bir daha şahidi olduq ki, ölkəmizdə həyata keçirilən idman siyasəti öz bəhrəsini verir. Bakı-2015 Azərbaycanın istənilən beynəlxalq tədbiri ən ideal şəkildə təşkil etmək imkanlarının növbəti təsdiqi olmaqla yanaşı, həm də ölkəmizdə idmanın inkişaf dinamikasının, Olimpiya Hərəkatının geniş vüsət aldığını bütün dünyaya nümayiş etdirdi. Avropa Oyunlarının standartını Azərbaycan müəyyənləşdirdi. Ümumiyyətlə, Olimpiya Oyunlarında iştirak etməklə yanaşı, bu idman tədbirinə ev sahibliyi də hər bir dövlət üçün olduqca qürurverici haldır. Təsadüfi deyil ki, bu idman yarışına ev sahibliyi uğrunda ölkələr arasında hələ illər öncədən ciddi mübarizə aparılırdı.

### Romada qəbul olunan tarixi qərar

İlk Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar isə 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin (AOK) 41-ci Baş Assambleyasında qəbul edilib. AOK Baş Assambleyasının qərarı səsvermədə iştirak edən 48 nəfərdən 38-nin səs çoxluğu ilə qəbul edilib.

Prezident İlham Əliyev 2013-cü il 17 yanvar tarixində "I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Sərəncam imzaladı. Bakıda yeni infrastrukturun yaradılması və Oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, Təşkilat Komitəsi hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza atdı. Bütün bu və ya digər məsələlər Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının Bakıda keçirilən 5 iclasında da geniş müzakirə olundu. Ümumilikdə, bu toplantıların əsas məqsədi görülən işlərin hesabatı, tədbirdə iştirak edən peşəkar insanlarla təcrübə mübadiləsinin aparılması, yeni ideyaların, məsləhətləşmələrin əldə olunması idi. Avropanın ən böyük şəhərlərində təqdimat mərasimləri keçirildi. I Avropa Oyunlarına hazırlığın tələb olunan səviyyədə həyata keçirilməsində Oyunların Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın təşkilatçılıq məharəti və hər bir işə böyük məsuliyyətlə yanaşması müstəsna rol oynadı. Məsul yarışda əsas məqsəd ən güclü idmançıların müəyyənləşdirilməsi ilə yanaşı, xalqlar arasında dostluq və həmrəyliyin möhkəmləndirilməsi, sülh və əmin-amanlığın təbliği idi. Bakı-2015 Avropa Oyunları Təşkilat Komitəsi yarışların yüksək səviyyədə keçirilməsi üçün intensiv hazırlıq işlərini davam etdirdi. Bakıda işlərin çox olmasına baxmayaraq, Mehriban xanım Əliyevanın təşəbbüsü və iştirakı ilə Avropa ölkələrində I Avropa Oyunlarının təqdimatı keçirildi. Həmin təqdimatlarda təkcə bu idman yarışı barədə müzakirələr açılmırdı. Eyni zamanda, Avropanın ən nüfuzlu idman tədbirinin qitənin aparıcı şəhərlərində təqdimatını keçirməklə I Avropa Oyunlarının əhəmiyyətinin çatdırılması, Təşkilat Komitəsi tərəfindən görülən işlər barədə məlumatlandırma, Azərbaycanın tarixi və mədəniyyətinin təbliği baxımından önəmli idi. Kann, Afina, Berlin, İstanbul, Paris, Davos, Roma, Moskva və Brüssel kimi şəhərlərdəki təqdimat mərasimlərində yekdilliklə vurğulandı ki, tarixdə ilk dəfə keçiriləcək Bakı-2015 I Avropa Oyunları ilə Azərbaycan dünya üçün nümunəvi və əhəmiyyətli təcrübə qoyacaq. Bütün bu göstəricilər Azərbaycanda idmanın dinamik inkişaf tempinə malik olduğunu, idman uğurlarının davamlı xarakter daşıdığını bir daha təsdiqlədi. Yəni, sadalanan uğurların əsasında idmana dövlət tərəfindən göstərilən yüksək səviyyəli qayğı durur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu bu siyasətin Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi bu istiqamətdə davamlı inkişafın əldə olunmasını təmin edir. Yəni Azərbaycan müasir idman və digər infrastruktura, dünya arenalarında böyük uğurlar qazanan idmançılara sahib dövlət kimi seçim zamanı bir addım öndə olur.

### Azərbaycan ictimai-siyasi baxımdan sabit ölkədir

Diqqəti çəkən məsələlərdən biri də Avropa Oyunları zamanı həyata keçirilən yüksək təhlükəsizlik tədbirləri idi. Bu, o deməkdir ki, Azərbaycanda vətəndaşların və cəmiyyətin təhlükəsizliyi ən yüksək səviyyədə təmin olunur. I Avropa Oyunları beynəlxalq səviyyəli idman tədbiri olduğundan ölkəmizə minlərlə idmançının, on minlərlə turistin gələcəyini nəzərə alaraq yarışların keçirildiyi günlərdə də ölkəmizin hüquq-mühafizə orqanları bu işin öhdəsindən layiqincə gəldilər. Onların əsl vətənpərvərlik, yüksək əzm və peşəkarlıq nümayiş etdirmələrinin nəticəsi olaraq I Avropa Oyunlarının təhlükəsizliyi ən yüksək səviyyədə təmin olundu. Bu, həm də onu göstərdi ki, Azərbaycan ictimai-siyasi baxımdan sabit ölkədir və burada hər hansı riyakar planın həyata keçirilməsi mümkün deyil.



Avropaya nur saçan məşəl - Əslində, ölkəmizdə bu möhtəşəm idman müsabiqəsinin həyəcanı 2014-cü il aprelin 26-dan başlamışdı. Həmin gün Bakıda "Atəşgah" məbədində I Avropa Oyunlarının məşəli alovlandırıldı və bununla da özünün yeni mərhələsinə qədəm qoydu. Buna görə həmin gün I Avropa Oyunlarının həyəcanının başlanğıc günü kimi tarixə düşdü. Prezident İlham Əliyevin alovlandırdığı məşəl Azərbaycanın bütün regionunu gəzdi.

### Məşəl 47 gün ərzində 5,5 min kilometr məsafəni qət etdi

60 rayonu səyahət edərək 47 gün ərzində 5,5 min kilometr məsafə qət edən məşəlin səyahəti zamanı ümumilikdə mindən çox məşəlçi iştirak etdi. Məşəl yer üstündə - avtobus, funikulyor, velosiped, yer altında isə Bakı metrosu, suda qayıq, havada isə təyyarə ilə daşındı. Məşəlin səyahəti Azərbaycanın inkişafını, yüksəlişini, xalqımızın isə sıx həmrəyliyini və yüksək mənəvi ovqatını bütün dünyaya nümayiş etdirdi. Fəxr edəcəyimiz bir məqam da bundan ibarətdir ki, I Avropa Oyunlarının məşəli hər zaman "Atəşgah" məbədində - "Odlar Yurdu"nda alovlanacaq. Avropa Oyunlarında dünyanın diqqət mərkəzində olan əsas hadisələrdən biri də yarışın təntənəli açılış və bağlanış mərasimləri idi. İnsanı təsirləndirən və heyrətləndirən ssenariləri, ayrı-ayrı süjetlərin özündə ehtiva etdiyi dərin fəlsəfi məzmun yükü hələ uzun illər xatirələrdən silinməyəcək.

### Qədimliklə müasirliyin sintezi

Paytaxtın xəritəsinə yeni daxil olmuş Bakı Olimpiya Stadionu öz möhtəşəmliyi, əsrarəngiz gözəlliyi ilə hər kəsin diqqətini çəkdi. Keçən il iyunun 12-də və 28-də burada dünyanın aparıcı bədii, yaradıcı və texniki heyətlərinin iştirakı ilə ərsəyə gələn kreativ şoular nümayiş olundu. Stadion ən mürəkkəb tərtibata malik möhtəşəm səhnə mexanizmindən ibarət məkana çevrilmişdi. O, təbiətin dörd ünsüründən- su, od, torpaq və yel obrazlarından istifadə edilməklə heyrətamiz bir mənzərə yaradırdı. Qədimliklə müasirliyin sintezinə əsaslanan bu səhnələr zəngin mənəvi dəyərlərə malik, tolerant azərbaycanlı obrazının, xalqımızın əsrlər boyu formalaşmış zəngin mənəvi-intellektual sərvətinin - milli düşüncə tərzinin, folklorunun, ədəbiyyatının, musiqisinin, incəsənətinin, humanizm və insansevərlik kimi bəşəri keyfiyyətlərə sadiqliyinin dolğun nümunəsi idi. "Uçan xalça", görkəmli muğam ustası Alim Qasımovun ifasında "Qarabağ şikəstəsi", balabanda "Sarı gəlin"mahnısının səsləndirilməsi, dahi Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin yüksək səhnə nümayişi, hamılıqla şahidi olduğumuz başqa innovativ yeniliklər açılış mərasimini milyonlarla insan üçün unudulmaz xatirəyə çevirdi. Bağlanış mərasiminin də süjet xətti orijinallığı və qeyri-adiliyi ilə seçilirdi. Folklor nümunələrimizdə Simurq quşu əsas mifoloji obrazlardan biri olaraq insanları xilas edən, onlara yardım göstərən, qanadından tük verərək dar gündən xilas edən əfsanəvi varlıq kimi öz əksini tapıb. Simurq quşu həyat ağacını səmadan yerə endirən, insanlara həyatı, yaşamağı öyrədən bir quşdur. Bu mənada, bağlanış mərasimində nümayiş olunan Simurq quşu Azərbaycanın bütün dünyaya yardım üçün açıq ölkə olduğunu göstərirdi. Bir sözlə, Azərbaycan səbirsizliklə gözlənilən ilk Avropa Oyunlarının həyəcan və sevincini dünyaya yaşatdı. Beynəlxalq ictimaiyyət yüksək səviyyəli, möhtəşəm və inanılmaz idman bayramının şahidi oldu.



# I AVROPA OYUNLARI

## *foto-obyektivin gözü ilə*





















# II AVROPA OYUNLARI



## Mindən çox idmançı dopinq nəzarətinə cəlb olunacaq

Minsk-2019 II Avropa Oyunları zamanı idmançılar və Olimpiya Kəndində yaşayan şəxslər dərmanla pulsuz təchiz ediləcəklər.

Bu barədə Belarusun səhiyyə nazirinin müavini Dimitri Pineviç mətbuat konfransında bildirib. II Avropa Oyunlarının Əməliyyat Komitəsinin direktoru Georgi Katulin isə deyib ki, tibbi və antidopinq təminatı Oyunlara hazırlığın əsas istiqamətlərindən hesab olunur.




Yarışlar zamanı Ümumdünya Antidopinq Agentliyinin (WADA) mütəxəssislərinin iş başında olacaqlarını söyləyən G.Katulinin sözlərinə görə, hər 4 idmançıdan birinin dopinq nəzarətinə cəlb edilməsi planlaşdırılır.

Qeyd edək ki, iyunun 21-30-da iyunda keçiriləcək II Avropa Oyunlarında 50 ölkənin 4 mindən çox idmançısı iştirak edəcək.

* * *

Belarusda keçiriləcək Minsk-2019 ikinci Avropa Oyunlarında idmançıların dopinq testlərinə Avropa Olimpiya Komitələri (EOC) nəzarət edəcək.

Bu barədə Belarus Milli Antidopinq Agentliyinin direktoru Denis Mujjuxin məlumat verib.

II Avropa Oyunlarında iştirak edən idmançıların dopinq testləri Vyana laboratoriyasına göndəriləcək: "EOC laboratoriya nəticələrini alacaq və böyük ehtimalla Ümumdünya Antidopinq Agentliyi (WADA) nəticələri bilməyəcək. Nümunələr 10 il ərzində saxlanıla bilər".

* * *

Minsk-2019II Avropa Oyunları üçün nəzərdə tutulan biletlərin yarısından çoxu satılıb.




Bu barədə II Avropa Oyunlarının Təşkilat Komitəsinin sədr müavini Anatoli Kotov bildirib. Onun sözlərinə görə, biletlərin 190 mindən çoxu alınıb. Daha çox karate, gimnastika, çimərlik futbolu və atletika üzrə yarışlara tələbat olub.

Biletlərin qiyməti 5 Belarus rublu və ya 2 avrodan (əcnəbi vətəndaşlar üçün), 50 rubl və ya 20 avroyadəkdir. Açılış mərasiminə biletlər yerlərin kateqoriyasından asılı olaraq, 150 - 300 rubl, bağlanış mərasiminə isə 70 - 150 rubldur.

* * *

Belarusda keçiriləcək Minsk-2019 II Avropa Oyunlarında siqaret çəkilməyən yerlər olacaq. Bu barədə "BelTA"ya ölkənin Milli Gigiyena, Epidemiologiya və Xalq Sağlamlıq Mərkəzindəki Xalq sağlamlığı şöbəsinin rəhbəri Olqa Bartman bildirib.

Qaydalar Oyunların keçiriləcəyi yerlərin içi və kənarına, eləcə də Belarus paytaxtındakı digər məkanlara şamil olunacaq.



Bartman yarışların baş tutacağı idman qurğularında, müsabiqənin qonaqlarının və iştirakçıların yerləşdirildiyi hotellərin yaxınlığında siqaret çəkməyi məhdudlaşdırmaq istədiklərini bildirib.

* * *

Belarusda II Avropa Oyunlarının medalları təqdimat mərasimi keçirilib.

Paytaxtın "Mir" qəsrində təşkil olunan tədbirdə qızıl, gümüş və bürünc medallar nümayiş etdirilib.

Klassik dairəvi formada olan medalların diametri 9,5 sm, qalınlığı, 9,5 mm-dir. Bu, Belarus əhalisinin sayının 9,5 milyon olmasına işarədir. Mükafatların çəkisi 540 qramdır. Medalların korpusu xüsusi tompak metalı ilə örtülüb. Onların hazırlanmasında 24 karat qızıl və 999 əyarlı xalis gümüş və bürüncdən istifadə olunub. II Avropa Oyunları üçün ümumilikdə, 1084 ədəd - 329 qızıl, eyni sayda gümüş və 426 bürünc medal hazırlanıb. Hər bir medalın əks üzündə onu əldə edən şəxsin çıxış etdiyi idman növünün rəmzi əks olunacaq.



Həmçinin II Avropa Oyunlarına gələcək ölkələrin nümayəndə heyətləri və rəsmi şəxsləri üçün də xatirə medalları hazırlanıb. Bunlar yarışlarda idmançılara verilmiş medalların kiçildilmiş surətini əks etdirəcək.

* * *

II Avropa Oyunlarını 120-dən çox ölkədə izləmək mümkün olacaq.

Avropa Olimpiya Komitələrinin rəsmi saytının yaydığı məlumata görə, Beynəlxalq İdman Yayımı (ISB) Oyunların yayımı üçün 100-dən çox telekanalla razılığa gəldiyini açıqlayıb.

Anlaşma əldə olunanların çoxunun Avropanın aparıcı telekanalları olduğu bildirilir.

Host Broadcaster

Ümumilikdə, Minsk-2019 üçün 106 ölkədən 500 milyon potensial tamaşaçının olacağı vurğulanıb.

İSB Oyunlardan, təqribən, 500 saat yayım həyata keçirəcək. Bura gündəlik yarışların geniş canlı yayımı ilə yanaşı, əsas hadisələrin yayım paketi də daxildir. Qurum açılış və bağlanış mərasimlərini də ekranlara gətirəcək.

**olimpnews.az - sizin saytınız**






*"Olimpiya dünyası" qəzetinin arxivindən*

**("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)**

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiymәti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19